***

*Canımın ağrıyan yeri,*
*həsrətimin üç hərfli nidası—*
*atam mənim!*
*Kimsə bilməz içimdəki bu yası.*
*Bir zəng gələ, mən açam ki, səsindir...*
*İnan mənə, inan atam bəsimdir.*
*Sənsizliyim ağrılıdır, ağırdır,*
*mən xırdayam, mən acizəm əlində.*
*Sarılıram məzarına, isinmirəm, ay ata!*
*Çağırıram hər nəfəsdə adını...*
*...ayrılığın yaman oldu, sərt oldu,*
*deyəmmədim salamat qal, hələlik!*
*Ay ata, dərdin mənə dərd üstündə dərd oldu!*
*Öpəmmədim əllərini doyunca,*
*mən qayğına qalammadım, bağışla!*
*İndi mənə boylanırsan məzardan*
*bir həsrətli,*
*bir nisgilli baxışla.*
*Vəfasızmış bu dünyanın o üzü...*
*Gedən dönmür, qalan ölmür,*
*gün keçir.*
*Həyat bizə hər addımda kəfən adlı don biçir.*
*Mən küsmərəm,*
*incimərəm bilirsən.*
*Bilirsən ki, bu şeirim*
*susdurduğum dərdimdir.*
*Bir zəng gələ, mən açam ki, səsindir...*
*İnan mənə, inan, atam, bəsimdir!*

**Gülsadə**



Türküstan.- 2023.- 12-18 dekabr,№45.- S.14.